ID: [redacted]

[redacted]

Azərbaycan Respublikası adından

# Q Ə T N A M Ə

Bakı şəhəri İş № [redacted]/2022 [redacted]2022-ci il

[redacted]

Hakim Əliyev Emin Zöhrab oğlunun sədrliyi, İslamova Natəvan Yaqub qızının katibliyi iddiaçı [redacted] oğlunun nümayəndəsi vəkil Nurəliyev Rəcəb Rza oğlunun, cavabdehlər [redacted] oğlu və [redacted] oğlunun nümayəndəsi vəkil Əliyev Absəläddin Murtuz oğlunun, cavabdeh [redacted] oğlunun nümayəndəsi vəkil [redacted] oğlunun və cavabdeh [redacted] oğlunun nümayəndəsi vəkil [redacted] oğlunun iştirakları ilə,

İddiaçı [redacted] oğlunun cavabdehlər “[redacted], [redacted] oğlu, [redacted] oğlu, [redacted] oğlu, [redacted] oğlu, [redacted] oğlu, [redacted] oğlu, [redacted] oğlu, “[redacted]-yə (müstəqil tələb irəli sürməyən üçüncü şəxslər: [redacted] oğlu, [redacted] oğlu, “[redacted]) qarşı müqavilənin etibarsız hesab edilməsi tələbinə dair kommersiya mübahisəsi ilə bağlı işə məhkəmənin binasında, açıq məhkəmə iclasında baxaraq,

## M Ü Ə Y Y Ə N   E T D İ:

İddiaçı [redacted] oğlu iddia ərizəsi və iddia tələbinin dəqiqləşdirilməsi barədə ərizə ilə məhkəməyə müraciət edərək, iddiaçı [redacted] iştirakçısı [redacted] oğlunun cavabdehlər “[redacted], “[redacted]-nin direktoru (qanuni təmsilçi) [redacted] oğluna, "[redacted]-nin iştirakçısı [redacted] oğluna, "[redacted]-nin iştirakçısı [redacted] oğluna, [redacted] oğluna, [redacted] oğluna, [redacted] oğluna, “[redacted]-nə, Müstəqil tələb irəli sürməyən üçüncü şəxslər: [redacted] oğluna, [redacted] oğluna, “[redacted]” [redacted]-yə qarşı - satıcı “[redacted] ilə alıcı [redacted] oğlu arasında bağlanılmış Markası: [redacted] ECOBUS; B/ili: 2012; Rəngi: [redacted]; Mühərrik: [redacted]; Şassı: [redacted] olan avtobus barədə 27.12.2014-cü il tarixli alqı-satqı müqaviləsinin; Markası: [redacted] ECOBUS; B/ili: 2012; Rəngi: AĞ; Mühərrik: [redacted]; Şassı: [redacted] olan avtobus barədə 27.12.2014-cü il tarixli alqı-satqı müqaviləsinin; Markası: [redacted] ECOBUS AVTOBUS; B/ili: 2012; Rəngi: AĞ; Mühərrik:

[redacted]; Şassı: [redacted] olan avtobus barədə 12.09.2017-ci il tarixli alqı-satqı müqaviləsinin; Markası: [redacted] ECOBUS AVTOBUS; B/ili: 2012; Rəngi: AĞ; Mühərrik: [redacted]; Şassı:[redacted] olan avtobus barədə 27.12.2014-cü il tarixli alqı-satqı müqaviləsinin, Markası: [redacted] ECOBUS AVTOBUS; B/ili: 2012; Rəngi: AĞ; Mühərrik: [redacted]; Şassi: [redacted] olan avtobus barədə 27.12.2014-cü il tarixli alqı-satqı müqaviləsinin, Markası: [redacted] ECOBUS AVTOBUS; B/ili: 2012; Rəngi: [redacted]; Mühərrik: [redacted]; Şassi: [redacted] olan avtobus barədə 27.12.2014-cü il tarixli alqı-satqı müqaviləsinin və Markası: [redacted] ECOBUS AVTOBUS; B/ili: 2012; Rəngi: AĞ; Mühərrik: [redacted]; Şassi: [redacted] olan avtobus barədə 27.12.2014-cü il tarixli alqı-satqı müqavilələrin etibarsız hesab edilməsi; 2. Markası: [redacted] ECOBUS [redacted]; B/ili: 2012; Rəngi: AĞ; Mühərrik: [redacted]; Şassı: [redacted] olan avtobus barədə satıcı "[redacted] ilə alıcı [redacted] oğlu arasında bağlanılmış 20.06.2018-ci il tarixli alqı-satqı müqaviləsinin, satıcı [redacted] oğlu ilə alıcı [redacted] oğlu arasında bağlanılmış 06.12.2018-ci il tarixli alqı-satqı müqaviləsinin, satıcı [redacted] oğlu ilə alıcı "[redacted]"[redacted] arasında bağlanılmış 13.11.2019-cu il tarixli alqı-satqı müqaviləsinin və satıcı "[redacted]"[redacted] ilə alıcı [redacted] oğlu arasında bağlanılmış 13.11.2019-cu il tarixli alqı-satqı müqavilələrin etibarsız hesab edilməsi; 3. Satıcı "[redacted] ilə alıcı "[redacted] arasında bağlanılmış Markası: [redacted] SUPER DELUXE A; B/ili: 2010; Rəngi: AĞ;Mühərrik:4M42-A84663; Şassi: [redacted] olan avtobus barədə 12.03.2020-ci il tarixli alqı-satqı müqaviləsinin və Markası: [redacted] SUPER DELUXE A; B/ili: 2010; Rəngi: AĞ; Mühərrik: 4M42-A84658; Şassi: [redacted] olan avtobus barədə 12.03.2020-ci il tarixli alqı-satqı müqavilələrin etibarsız hesab edilməsi; 4. Satıcı "[redacted] ilə alıcı [redacted] oğlu arasında bağlanılmış Markası: [redacted] BS090 AVTOBUS; B/ili: 2013; Rəngi: [redacted]; [redacted]: [redacted] olan avtobus barədə 13.01.2017-ci il tarixli alqı-satqı müqaviləsinin, Markası: [redacted] BS090 AVTOBUS; B/ili: 2013; Rəngi: [redacted]; Ban: [redacted] olan avtobus barədə 13.01.2017-ci il tarixli alqı-satqı müqaviləsinin, Markası: [redacted] AVTOBUS; B/ili: 2013; Rəngi: [redacted]; Ban: [redacted] olan avtobus barədə 13.01.2017-ci il tarixli alqı-satqı müqaviləsinin, Markası: DAEWOO BS90 AVTOBUS; B/ili: 2013; Rəngi: AĞ; [redacted]: [redacted] olan avtobus barədə 13.01.2017-ci il tarixli alqı-satqı müqaviləsinin, Markası: DAEWOO BS90 AVTOBUS; B/ili: 2013; Rəngi: AĞ; [redacted]: [redacted] olan avtobus olan 13.01.2017-ci il tarixli alqı-satqı müqaviləsinin, Markası: DAEWOO BS90 AVTOBUS; B/ili: 2013; Rəngi: AĞ; Ban: [redacted] olan avtobus barədə 13.01.2017-ci il tarixli alqı-satqı müqaviləsinin və Markası: DAEWOO BS90 AVTOBUS; B/ili: 2013; Rəngi: [redacted]; Ban: [redacted] olan avtobus barədə 13.01.2017-ci il tarixli alqı-satqı müqavilələrin etibarsız hesab edilməsi, 5. Markası: [redacted] SAZNP37 AVTOBUS; B/ili: 2011; Rəngi: AĞ; Mühərrik: [redacted]; Şassı: [redacted] olan avtobus barədə satıcı "[redacted] ilə alıcı [redacted] oğlu arasında bağlanılmış 27.02.2015-ci il tarixli alqı-satqı müqaviləsinin və satıcı [redacted] oğlu ilə alıcı [redacted] oğlu arasında bağlanılmış 16.12.2017-ci il tarixli alqı-satqı müqavilələrin etibarsız hesab edilməsi, 6. Markası: [redacted] SAZNP37 AVTOBUS; B/ili: 2011; Rəngi: AĞ; Mühərrik: [redacted]; Şassı: [redacted] olan avtobus barədə satıcı "[redacted] ilə alıcı [redacted] oğlu arasında bağlanılmış 27.02.2015-ci il tarixli alqı-satqı müqaviləsinin və satıcı [redacted] oğlu ilə alıcı [redacted] oğlu arasında bağlanılmış 28.12.2017-ci il tarixli alqı-satqı müqavilələrinj etibarsız hesab edilməsi, 7. Markası: [redacted] SAZNP37 MİCROAVTOBUS; B/ili: 2011; Rəngi: AĞ;

Mühərrik: [redacted]; Şassi: [redacted] olan avtobus barədə satıcı "[redacted] ilə alıcı [redacted] oğlu arasında bağlanılmış 27.02.2015-ci il tarixli alqı-satqı müqaviləsinin və satıcı [redacted] oğlu ilə alıcı [redacted] oğlu arasında bağlanılmış 30.12.2017-ci il tarixli alqı-satqı müqavilələrin etibarsız hesab edilməsi, 8. Markası: ISUZU SAZ NP 37 AVTOBUS; B/ili: 2011; Rəngi: AĞ; Mühərrik: [redacted]; Şassi: [redacted] olan avtobus barədə satıcı "[redacted] ilə alıcı [redacted] oğlu arasında bağlanılmış 27.02.2015-ci il tarixli alqı-satqı müqaviləsinin və satıcı [redacted] oğlu ilə alıcı [redacted] oğlu arasında bağlanılmış 10.11.2017-ci il tarixli alqı-satqı müqavilələrin etibarsız hesab edilməsi və həmin müqavilələr əsasında verilmiş şəhadətnamələrin ləğv ediilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

İddiaçı iddiasını onunla əsaslandırmışdır ki, iddiaçı Nizamnamə kapitalında 33.3 %-lik

iştirak payla cavabdeh "[redacted]-nin (bundan sonra "[redacted]") 3 təsisçisindən biridir. Digər iki iştirakçı da onun kimi, [redacted]-nin Nizamnamə kapitalında 33.3 %-lik iştirak payına malikdir. [redacted]-nin təsis edilməsində iştirakı onun fəaliyyətindən mənfəət əldə etmək məqsədi ilə edilmişdir. Lakin [redacted]-nin dövlət qeydiyyatına alındığı 2010-cu ildən indiyədək nəinki onun fəaliyyətindən hər hansı bir dividend əldə edə bilməmiş, eləcə də [redacted]-nin təsərrüfat fəaliyyəti və maliyyə vəziyyəti, eləcə də hər ildə bir dəfədən az olmayaraq çağırılması qanunvericiliklə məcburi hesab edilən iştirakçıların növbəti ümumi yığıncağı barədə hər hansı bir məlumatı yoxdur. [redacted]-nin təsərrüfat fəaliyyəti və maliyyə vəziyyəti, eləcə də iştirakçıların ümumi yığıncağı barədə məlumatların ona verilməsi, iştirakçıların ümumi yığıncağında iştirakının təmin edilməsi barədə cavabdehlərə dəfələrlə etdiyi şifahi və yazılı müraciətlər cavabsız saxlanılmış, eləcə də iştirakçıların ümumi yığıncaqlarında iştirakı qəsdən təmin edilmir. 2020-ci ilin mart ayının əvvəllərində ona məlum olmuşdur ki, [redacted]nin mülkiyyətində olan 21 ədəd avtobus başqa şəxslərə satılmışdır. Bununla əlaqədar olaraq [redacted]nin direktoruna müraciəti cavabsız qalmış, digər iştirakçı [redacted] oğlu isə özünün də bu məsələdən bixəbər olduğunu bildirmiş və məsləhət görmüşdür ki, əlaqədar dövlət orqanlarından rəsmi cavab alsın. Odur ki, vəkil vasitəsilə etdiyi sorğuya cavab olaraq [redacted] 20.03.2020-ci il tarixli [redacted]/220 saylı məktubu ilə 21 ədəd avtobusun satılması təsdiq edilsə də, [redacted] 15 mart 1999-cu il tarixli 39 nömrəli Qərarına (nəqliyyat vasitələrinin qeydiyyat hərəkətlərinin aparılmasına əsas olmuş sənədlərin (alqı-satqı müqaviləsi və s.) surətini almağa yalnız təhqiqat, istintaq, məhkəmə orqanlarının hüququ vardır) istinad edilərək alqı-satqı müqavilələrinin surətləri ona təqdim edilməmişdir. Belə ki, həmin məktubla təsdiq edilmişdir ki, 1. Markası: [redacted] ECOBUS AVTOBUS; B/ili: 2012; Rəngi: AĞ; Mühərrik: [redacted]; Şassı: [redacted] olan avtobus 27.12.2014-cü il tarixli alqı-satqı müqaviləsi ilə; Markası: [redacted] ECOBUS AVTOBUS; B/ili: 2012; Rəngi: [redacted]; Mühərrik: [redacted]; Şassı: [redacted] olan avtobus 27.12.2014-cü il tarixli alqı-satqı müqaviləsi ilə; Markası: [redacted] ECOBUS AVTOBUS; B/ili: 2012; Rəngi: AĞ; Mühərrik: [redacted]; Şassı: [redacted] olan avtobus 12.09.2017-ci il tarixli alqı-satqı müqaviləsi ilə; Markası: [redacted] ECOBUS AVTOBUS; B/ili: 2012; Rəngi: AĞ; Mühərrik: [redacted]; Şassı:[redacted] olan avtobus 27.12.2014-cü il tarixli alqı-satqı müqaviləsi ilə, Markası: [redacted] ECOBUS AVTOBUS; B/ili: 2012; Rəngi: AĞ; Mühərrik: [redacted]; Şassi: [redacted] olan avtobus 27.12.2014-cü il tarixli alqı-satqı müqaviləsi ilə, Markası: [redacted] ECOBUS AVTOBUS; B/ili: 2012; Rəngi: AĞ; Mühərrik: [redacted]; Şassi: [redacted] olan avtobus 27.12.2014-cü il tarixli alqı-satqı müqaviləsi ilə, Markası: [redacted] AVTOBUS; B/ili: 2012; Rəngi: AĞ;

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim -** Emin [redacted]
**Məhkəmənin adı:** [redacted]
**Sənədin elektron yüklənmə ünvanı:**
[redacted]

[redacted]

**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

S/N: 017

Mühərrik: [redacted]; Şassi: [redacted] olan avtobus 27.12.2014-cü il tarixli alqı-satqı müqaviləsi ilə satıcı“[redacted] tərəfindən alıcı [redacted] oğluna satılmışdır. 2. Markası: [redacted] ECOBUS AVTOBUS; B/ili: 2012; Rəngi: AĞ; Mühərrik: [redacted]; Şassı: [redacted] olan avtobus 20.06.2018-ci il tarixli alqı-satqı müqaviləsi ilə satıcı “[redacted] tərəfindən alıcı [redacted] oğluna, 06.12.2018-ci il tarixli alqı- satqı müqaviləsi ilə satıcı [redacted] oğlu tərəfindən alıcı [redacted] oğluna, 13.11.2019-cu il tarixli alqı-satqı müqaviləsi ilə satıcı [redacted] oğlu tərəfindən alıcı “[redacted]-yə, 13.11.2019-cu il tarixli alqı-satqı müqaviləsi ilə satıcı “[redacted] [redacted] tərəfindən alıcı [redacted] oğluna satılmışıdr. 3. Markası: [redacted] SUPER DELUXE A; B/ili: 2010; Rəngi: AĞ; Mühərrik:4M42-A84663; Şassi: [redacted] olan avtobus 12.03.2020-ci il tarixli alqı-satqı müqaviləsi satıcı “[redacted] tərəfindən alıcı “[redacted]- yə satılmışdır. 4. Markası: [redacted] SUPER DELUXE A; B/ili: 2010; Rəngi: AĞ; Mühərrik: 4M42-A84658; Şassi: [redacted] olan avtobus 12.03.2020-ci il tarixli alqı-satqı müqaviləsi satıcı “[redacted] tərəfindən alıcı “[redacted]-yə satılmışdır. 5. Markası: [redacted] AVTOBUS; B/ili: 2013; Rəngi: AĞ; [redacted]: [redacted] olan avtobus 13.01.2017-ci il tarixli alqı-satqı müqaviləsi ilə, Markası: [redacted] AVTOBUS; B/ili: 2013; Rəngi: AĞ; Ban: [redacted] olan avtobus 13.01.2017-ci il tarixli alqı-satqı müqaviləsi ilə, Markası: [redacted] AVTOBUS; B/ili: 2013; Rəngi: [redacted]; Ban: [redacted] olan avtobus 13.01.2017-ci il tarixli alqı-satqı müqaviləsi ilə, Markası: DAEWOO BS90 AVTOBUS; B/ili: 2013; Rəngi: [redacted]; Ban: [redacted] olan avtobus 13.01.2017-ci il tarixli alqı-satqı müqaviləsi ilə, Markası: DAEWOO BS90 AVTOBUS; B/ili: 2013; Rəngi: AĞ; Ban: [redacted] olan avtobus 13.01.2017-ci il tarixli alqı-satqı müqaviləsi ilə, Markası: DAEWOO BS90 AVTOBUS; B/ili: 2013; Rəngi: AĞ; Ban: [redacted] olan avtobus 13.01.2017-ci il tarixli alqı-satqı müqaviləsi ilə və Markası: DAEWOO BS90 AVTOBUS; B/ili: 2013; Rəngi: [redacted]; [redacted]: [redacted] olan avtobus 13.01.2017-ci il tarixli alqı-satqı müqaviləsi ilə satıcı “[redacted] tərəfindən alıcı [redacted] oğluna satılmışdır. 6. Markası: ISUZU SAZNP37 MİKROAVTOBUS; B/ili: 2011; Rəngi: AĞ; Mühərrik: [redacted]; Şassı: [redacted] olan avtobus 27.02.2015-ci il tarixli alqı-satqı müqaviləsi ilə satıcı “[redacted] tərəfindən alıcı [redacted] oğluna, 16.12.2017-ci il tarixli alqı-satqı müqaviləsi ilə satıcı [redacted] oğlu tərəfindən alıcı [redacted] oğluna satılmışdır. 7. Markası: [redacted] SAZNP37 MİKROAVTOBUS; B/ili: 2011; Rəngi: AĞ; Mühərrik: [redacted]; Şassı: [redacted] olan avtobus 27.02.2015-ci il tarixli alqı-satqı müqaviləsi ilə satıcı “[redacted] tərəfindən alıcı [redacted] oğluna, 28.12.2017-ci il tarixli alqı-satqı müqaviləsi ilə satıcı [redacted] oğlu tərəfindən alıcı [redacted] oğluna satılmışdır. 8. Markası: ISUZU SAZNP37 MİCROAVTOBUS; B/ili: 2011; Rəngi: AĞ; Mühərrik: [redacted]; Şassi: [redacted] olan avtobus 27.02.2015-ci il tarixli alqı-satqı müqaviləsi ilə satıcı “[redacted] tərəfindən alıcı [redacted] oğluna, 30.12.2017-ci il tarixli alqı-satqı müqaviləsi ilə satıcı [redacted] oğlu tərəfindən alıcı [redacted] oğluna satılmışdır. 9. Markası: [redacted] SAZ NP 37 AVTOBUS; B/ili: 2011; Rəngi: AĞ; Mühərrik: [redacted]; Şassi: [redacted] olan avtobus 27.02.2015-ci il tarixli alqı-satqı müqaviləsi ilə satıcı “[redacted] tərəfindən alıcı [redacted] oğluna, 10.11.2017-ci il tarixli alqı-satqı müqaviləsi ilə satıcı [redacted] oğlu tərəfindən alıcı [redacted] oğluna satılmışdır.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim -** Emin [redacted]
**Məhkəmənin adı:** [redacted]
**Sənədin elektron yüklənmə ünvanı:**
[redacted]

<u>**Qeyd:**</u> «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

[redacted]
S/N: 017

Cavabdehlər [redacted] oğlu və [redacted] oğlunun nümayəndəsi vəkil Əliyev Absələddin Murtuz oğlu elektron məhkəmə informasiya sisteminə etiraz yükləmiş və etirazında bildirmişdir ki, iddiaçı [redacted] oğlunun cavabdehlər [redacted] oğlu, [redacted] oğlu və digərlərinə qarşı müqavilənin etibarsız hesab edilməsi tələbinə dair [redacted]/2022 saylı kommersiya işi hazırda icraatınızda olmaqla baxılmaqdadır. İddiaçı iddia tələbinin əsası kimi 7 ədəd 2014-cü il tarixli, 7 ədəd 2015-ci il tarixli və 7 ədəd 2017-ci il tarixli olmaqla cəmi 21 ədəd müqaviləyə istinad etmişdir. İddiaçı iddia tələbini onunla əsaslandırmışdır ki, o, cəmiyyətin təsisçilərindən biridir və müqavilələr imzalanarkən onun xəbəri olmamışdır. Əslində isə məsələ ondan ibarətdir ki, hər bir kommersiya Cəmiyyətləri, o cümlədən Məhdud Məsuliyyətli Cəmiyyətlər Nizamnamə əsasından fəaliyyət göstərir, Cəmiyyətdə idarəçilk isə təkbaşına və ya kollegial icra orqanı tərəfindən həyata keçirilir. “[redacted] də icra orqanı funksiyasını nizamnamə əsasında fəaliyyət göstərən qanuni təmsilçi, yəni direktor həyata keçirir. Nizamnaməyə görə qanuni təmsilçi Cəmiyyətin idarəçiliyini həyata keçirməklə bərabər, etibarnamə olmadan Cəmiyyətin adından çıxış edir, istənilən müqavilələri imzalayır, başqa şəxslərə Cəmiyyət adından çıxış etməsi üçün etibarnamə verir və bir sıra başqa funksiyaları həyata keçirir. “[redacted]-nin Nizamnaməsi iddiaçı da daxil olmaqla bütün təsisçilər tərəfindən təsdiq olunmuş və Cəmiyyətin qanuni təmsilçisi, yəni direktoru bütün təsisçilər tərəfindən təsdiq olunmuş qərar əsasından vəzifəyə təyin olunmuşdur. İddia ərizəsindən də görünür ki, iddiaçının etibarsızlığını tələb etdiyi müqavilələr müxtəlif tarixlərdə imzalanmışdır. İddiaçı Cəmiyyətin fəaliyyəti ilə yaxından tanış olmuş, hətta cəmiyyətin fəaliyyətinə xeyli müddət qeyri-rəsmi rəhbərlik də etmişdir. Qeyd olunanlar bunu deməyə əsas verir ki, iddiaçı Cəmiyyətin fəaliyyətindən və Qanuni təmsilçi tərəfindən imzalanmış müqavilələrdən məlumatlı olmuşdur. Digər tərəfdən, nəzərinizə çatdırmaq istəyirəm ki, cavabdehlər [redacted] oğlu və [redacted] oğlu iddiaçı [redacted] oğlu kimi “[redacted] təsisçilərindən biridirlər, Cəmiyyətdə onunla eyni paya və hüquqlara sahibdirlər. 2 Cavabdehlər “[redacted]-nin icra orqanında heç bir zaman təmsil olunmamış və cəmiyyətin icra orqanında hər hansı vəzifəyə sahib olmamışlar. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 87.1-ci maddəsində qeyd olunur ki, bir və ya bir neçə şəxs (fiziki və (və ya) hüquqi şəxs) tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən cəmiyyət məhdud məsuliyyətli cəmiyyət sayılır. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları onun öhdəlikləri üzrə məsuliyyət daşımır və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların dəyəri həddində risk daşıyırlar. Cəmiyyət öz iştirakçılarının üçüncü şəxslər qarşısında öhdəliklərinə görə məsuliyyət daşımır. Həmin Məcəllənin 91-ci maddəsində göstərilir ki, məhdud məsuliyyətli cəmiyyətin ali orqanı onun iştirakçılarının ümumi yığıncağıdır. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçılarının ümumi yığıncağı növbəti və növbədənkənar ola bilər. Hər bir iştirakçının cəmiyyətin iştirakçılarının ümumi yığıncağında iştirak etmək, cəmiyyətin orqanlarını seçmək (təyin etmək), onlara seçilmək (təyin edilmək) və səsvermədə iştirak etmək, şəxsən iştirak etmək və ya bu Məcəllə ilə müəyyən edilmiş qaydada təyin etdiyi nümayəndə vasitəsilə təmsil olunmaq, ümumi yığıncağın gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək hüququ vardır. Cəmiyyətin iştirakçılarının ümumi yığıncaqda hər bir iştirakçının onun nizamnamə kapitalındakı payına mütənasib səsi vardır. Göründüyü kimi, əqdin etibarsızlığı ilə bağlı məhkəmədə iddia tələbi irəli sürülərkən cəmiyyətlə aralarında olan hüquqi münasibətlər baxımından iddiaçı ilə eyni statusda olan iştirakçılardan birinin digərlərini cavabdeh kimi qoymasının heç bir hüquqi əsası yoxdur. Əgər iddiaçının əsassız olaraq iddia etdiyi kimi,

müqavilələrin etibarsız hesab edilməsinə əsas varsa və həmin müqavilələr cəmiyyətdə eyni paya sahib olan iştirakçılardan birinin hüquqlarına toxunursa (pozursa), deməli digər iştirakçılara (cavabdehlər [redacted] oğlu və [redacted] oğluna) münasibətdə də eyni hüquqi nəticələrə səbəb olmalıdır.

Cavabdeh [redacted] oğlunun nümayəndəsi vəkil [redacted] oğlu elektron məhkəmə informasiya sisteminə etiraz yükləmiş və etirazında bildirmişdir ki, cavabdeh [redacted] oğlu qeyd edilən avtobusları-daşmar əşyaları vicdanla əldə etmişdir. Həmin daşınar əşyalar qanunvericiliklə nəzərdə tutulmuş qaydada özgəninkiləşdirilmişdir. Hesab edirik ki, iddiaçının ərizəsində qeyd etdiyi kimi Cəmiyyətin təsisçiləri arasında bununla bağlı hər hansı fikir ayrılığının olduğunu bilməsi mümkün deyildir. Bu səbəbdən də [redacted] oğlu həmin əmlakları vicdanlı əldə etmiş və vicdanlı alıcı olmuşdur. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (bundan sonra Mülki Məcəllə) 182.1-ci maddəsinə əsasən əşyanı özgəninkiləşdirənin onun mülkiyyətçisi olmadığı, lakin bu fakt barədə vicdanlı əldə edən olduğu hallarda da əldə edən əşyanın mülkiyyətçisi olur. Əgər əldə edən özgəninkiləşdirənin mülkiyyətçi olmadığını bilirmişsə və ya bilməli idisə, vicdanlı əldə edən sayılmır. Vicdanlılıq faktı əşya verilənə qədər mövcud olmalıdır. Qeyd edilənlər bir daha sübut edir ki. vicdanlı alıcıya tətbiq olunmalı normalar cavabdeh [redacted]a da şamil olunmalı və iddia rədd edilməlidir. İddiaçı ərizəsində göstərmişdir ki, "[redacted]" [redacted]-nin (bundan sonra "[redacted]") Nizamnamə kapitalında 33.3 %-lik iştirak payına malikdir. Bu səbəbdən də alqı-satqı müqavilələrində məhz onun razılığı da alınmalı və bununla bağlı [redacted]-nin təsisçilərinin yığıncağı keçirilməli və yekun qərar qəbul edilməli idi. O cümlədən, iddia ərizəsində satılmış 21 ədəd avtobusun dəyərinin [redacted]nin aktivlərinin 50 faizindən çox hissəsini təşkil etdiyini və bu səbəbdən də xüsusi əhəmiyyətli əqd hesab edildiyindən həmin əqdlərin bağlanmasına [redacted]-nin iştirakçılarının ümumi yığıncağının qərarı ilə razılıq verilməli olduğu göstərilmişdir. İddiaçı iddiasının hüquqi əsası kimi Mülki Məcəllənin 87.10-cu maddəsinə istinad etmişdir. Belə ki, həmin maddəyə əsasən, məhdud məsuliyyətli cəmiyyətin xalis aktivlərinin dəyərinin əlli faizindən artıq məbləğdə olan əqd xüsusi əhəmiyyətli əqd hesab edilir. Xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərar cəmiyyətinin iştirakçılarının ümumi yığıncağında qəbul edilir. Əvvəla yuxarıda da qeyd etdiyimiz kimi cavabdeh [redacted]un müqavilələrlə bağlı [redacted]-nin təsisçiləri arasında bununla bağlı hər hansı fikir ayrılığının olduğunu bilməsi mümkün deyildir. Daha sonra məsələ ilə bağlı aşağıdakıları bildirmə) i zəruri hesab edirik: İddiaçı iddia tələbinin əsası kimi 7 ədəd 2014-cü il tarixli. 7 ədəd 2015-ci il tarixli və 7 ədəd 2017- ei il tarixli olmaqla cəmi 21 ədəd müqaviləyə istinad etmişdir. Məlum olduğu kimi, hər bir kommersiya qurumu, o cümlədən Məhdud Məsuliyyətli Cəmiyyətlər Nizamnamə əsasında fəaliyyət göstərirlər və onlar idarəçiliyi təkbaşına və ya kollegial icra orqanı tərəfindən həyata keçirilir. MMC-nin də icra orqanı funksiyasım nizamnamə əsasında fəaliyyət göstərən qanuni təmsilçi, yəni direktor həyata keçirir. Belə ki. MMC-nin Nizamnaməsinin 4.7-ci bəndinə əsasən Direktor MMC-nin idarəçiliyini həyata keçirməklə bərabər, etibarnamə olmadan MMC-nin adından çıxış edir, istənilən müqavilələri imzalayır, başqa şəxslərə MMC adından çıxış etməsi üçün etibarnamə verir və bir sıra başqa funksiyaları həyata keçirir. Onu da qeyd edirik ki. MMC-nin nizamnaməsi bu iş üzrə İddiaçı da daxil olmaqla bütün təsisçilər tərəfindən təsdiq olunmuş və MMC-nin qanuni təmsilçisi, yəni direktoru bütün təsisçilər tərəfindən təsdiq olunmuş qərar əsasında vəzifəyə təyin olunmuşdur. Bu səbəbdən də hesab edirik ki. MMC-nin direktorunun müqavilələr bağlayan zaman təsisçilərin razılığının alınmasının heç bir hüquqi əsası yoxdur. Digər tərəfdən iddiaçı satılmış avtobusların dəyərinin MMC-nin xalis aktivlərinin 50 faizindən çox hissəsini təşkil etməsi barədə məhkəməyə hər hansı sübut təqdim etməmişdir. Belə ki, iddiaçı iddiasının

əsası kimi müqavilələrin bağlandığı illər üzrə, yəni müvafiq olaraq 2014, 2015 və 2017-ci illərdə MMC-nin xalis aktivlərinin dəyəri barədə sübutları məhkəməyə təqdim etməli idi ki. həmin müqavilələrin xalis aktivlərin əhəmiyyətli hissəsini təşkil edib etmədiyinin faiz nisbətini müəyyən etmək mümkün ol.sıın. Bundan əlavə, iddiaçının hüquqi əsas kimi istinad etdiyi maddi hüquq norması ilə bağlı qeyd edilməlidir ki, iddiaçının ərizəsində göstərdiyi Mülki Məcəllənin 87.10-cu maddəsi müqavilələrin bağlandığı tarixdən daha sonrakı dövrdə konkret olaraq 2018-ci ilin sonunda Məcəlləyə müvafiq dəyişiklik edilməklə əlavə edilmişdir. Qeyd edilən müddəaya istinad edilməsi özlüyündə qanunun zamana görə qüvvəsi anlayışı ilə ziddiyyət təşkil etməkdədir. Beləliklə, göründüyü kimi istər cavabdehin MMC-nin daxilində hər hansı fikir ayrılığı olduğunu bilməsinin mümkün olmaması, istər İddiaçının heç bir sübut olmadan bağlanılan müqavilələrin MMC-nin xalis aktivlərinin 50 faizini təşkil etməsi barədə əsassız iddiası, istərsə də İddiaçının istinad etdiyi hüquqi əsasın qanunun zamana görə qüvvəsinə uyğun gəlməməsi halı bir daha sübut edir ki. İddiaçının iddia tələbi tamamilə əsassızdır və rədd olunmalıdır. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin (bundan sonra MPM) 14.1 -ci maddəsinə əsasən, məhkəmə həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradır. Bunun üçün məhkəmə: işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək, yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir.

Bununla yanaşı cavabdeh [redacted] oğlunun nümayəndəsi vəkil [redacted] oğlu sistemə iddia müddətinin tətbiqinə dair ərizə yükləmiş və ərizədə bildirmişdir ki, iddiaçı iddia tələbinin əsası kimi 7 ədəd 2014-cü il tarixli, 7 ədəd 2015-ci il tarixli və 7 ədəd 2017-ci il tarixli olmaqla cəmi 21 ədəd müqaviləyə istinad etmişdir. İddiaçı iddia tələbini onunla əsaslandırmışdır ki, o, Cəmiyyətin təsisçilərindən biridir və müqavilələr imzalanarkən onun xəbəri olmamışdır. Bildiyimiz kimi, hər bir kommersiya qurumları, o cümlədən Məhdud Məsuliyyətli Cəmiyyətlər Nizamnamə əsasında fəaliyyət göstərirlər və onlar idarəçiliyi təkbaşına və ya kollegial icra orqanı tərəfindən həyata keçirilir. “[redacted] də icra orqanı funksiyasını nizamnamə əsasında fəaliyyət göstərən qanuni təmsilçi, yəni direktor həyata keçirir. Nizamnaməyə görə qanuni təmsilçi Cəmiyyətin idarəçiliyini həyata keçirməklə bərabər, etibarnamə olmadan Cəmiyyətin adından çıxış edir, istənilən müqavilələri imzalayır, başqa şəxslərə Cəmiyyət adından çıxış etməsi üçün etibarnamə verir və bir sıra başqa funksiyaları həyata keçirir. Onu da qeyd edirik ki, “[redacted]-nin Nizamnaməsi bu iş üzrə iddiaçı da daxil olmaqla bütün təsisçilər tərəfindən təsdiq olunmuş və Cəmiyyətin qanuni təmsilçisi, yəni direktoru bütün təsisçilər tərəfindən təsdiq olunmuş qərar əsasından vəzifəyə təyin olunmuşdur. İddia ərizəsindən də görünür ki, iddiaçının etibarsızlığını istədiyi müqavilələr müxtəlif tarixlərdə imzalanmışdır. İddiaçı Cəmiyyətin fəaliyyətindən və Qanuni təmsilçi tərəfindən imzalanmış müqavilələrdən məlumatlı olmaması ilə bağlı fikirləri heç də inandırıcı deyil və bununla bağlı məhkəməyə hər hansı sübut təqdim etməmişdir. İddiaçının mübahisələndirdiyi əqdlərin icrasının üzərindən müvafiq olaraq 6 il, 5 il və 3 il müddət keçmişdir və buna görə də iddiaçı mülki hüququn həyata keçirilməsi müddətini ötürmüşdür. Məlum olduğu kimi, “Mübahisələndirilən əqdin etibarsız sayılması tələbi” və “əhəmiyyətsiz əqdin etibarsızlığının nəticələrinin tətbiqi tələbi” mülki hüquqdur və mülki hüququn həyata keçirilməsi müddəti bitəndə hüququn özü də xitam olunur. Mülki Məcəllənin 354-cü maddəsində etibarsız əqdlər üzrə müddət müəyyən olunmuşdur. Mülki Məcəllənin 354.1.-ci maddə qeyd olunur ki, əhəmiyyətsiz əqdin etibarsızlığı əqdin özünün deyil, belə əqdin nəticələrinin tətbiqi haqqında iddianın (onun icrasına başlanıldığı gündən) bir il ərzində irəli sürülə bilər. Qeyd edilən maddənin

tələbinə əsasən, müəyyən edilmiş müddətlər iddia müddəti deyil, “mübahisələndirilən əqdin etibarsız sayılması barədə” və “əhəmiyyətsiz əqdin etibarsızlığının nəticələrinin tətbiqi barədə” mülki hüququn həyata keçirilməsi müddətidir. Bu səbəbdən həmin müddətlər bitdikdə məhkəmə cavabdehin “müddətin tətbiqi barədə” ərizə verib-vermədiyindən asılı olmayaraq müddəti tətbiq edərək iddia rədd etməlidir. [redacted] “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 337, 339.6, 346.1 və 354-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair” 02.04.2021-ci il tarixli Qərarında “əqdin etibarsız sayılması” və “əhəmiyyətsiz əqdin etibarsızlığı” ilə bağlı məsələlərə aydınlıq gətirilmişdir. Həmin qərarda göstərilir ki, Mülki Məcəllənin 135.7-ci maddəsinə uyğun olaraq, başqa əşyalardan yalnız özlərinə xas əlamətlərə görə ayrılmış fərdi-müəyyən əşyalar əvəzedilməz əşyalar sayılır. Növ əlamətlərinə görə fərqlənən, dövriyyədə adətən say, ölçü və ya çəki ilə müəyyənləşdirilən daşınar əşyalar isə əvəzedilən əşyalar sayılır. Əvə/.cdilən əşyalar mülki dövriyyədə yalnız say, ölçü, çəki ilə müəyyənləşdirilən əşyalardır ki. bu əşyalar əhəmiyyətsiz əqd üzrə verilmiş olsa belə, əldə edənin əmlakına qarışdığından, sonuncunun həmin əşya üzərində hüququ yaranır. Lakin əldə edənin əşya üzərində hüququ heç bir hüquqi əsas olmadan yarandığından, əsassız varlanmaya səbəb olur. Məhz bu halda əhəmiyyətsiz əqd üzrə şəxs digər tərəfə qarşı tələb hüququnu reallaşdıraraq. Mülki Məcəllənin 354.1 -ci maddəsi ilə müəyyən edilmiş bir il müddət ərzində əhəmiyyətsiz əqd üzrə icra edilnıişlərin geri qaytarılması ilə bağlı iddia verə bilər. Yəni həmin maddədə müəyyən edilmiş bir illik müddət əhəmiyyətsiz əqdin icrası nəticəsində yaranmış əsassız, varlanma halları ilə bağlı tələblər üçün keçərlidir. [redacted] Miraqall Eskolano və digərlərinin İspaniyaya qarşı iş üzrə 25 yanvar 2000-ci il tarixli qərarında belə nəticəyə gəlmişdir ki, atılmalı olan formal addımları və şikayətlərin verilməsi üçün riayəı edilməli olan müddət məhdudiyyətlərini tənzimləyən qaydalar ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsinin və xüsusi ilə hüquqi müəyyənlik prinsipi ilə uyğunluğunun təmin edilməsi məqsədini daşıyır. Məhkəmə mübahisəsi üzrə tərəflər bu qaydaların tətbiq edilməsini nəzərə almalıdırlar.

Məhkəmə iclasında iştirak edən [redacted] oğlunun nümayəndəsi vəkil Nurəliyev Rəcəb Rza oğlu iddia ərizəsi və iddia tələbinin dəqiqləşdirilməsi barədə ərizəyə uyğun izahat vermiş və əlavə olaraq nəqliyyat vasitələrinin alqı-satqısı müqavilələri “[redacted]-nin səlahiyyətli şəxsi tərəfindən imzalanmadığını bildirərək iddianın təmin olunmasını məhkəmədən xahiş etmişdir.

Məhkəmə iclasında iştirak etmiş cavabdehlər [redacted] oğlu və [redacted] oğlunun nümayəndəsi vəkil Əliyev Absələddin Murtuz oğlu iddia ərizəsinə etiraza uyğun izahat verərək iddianın rədd olunması barədə qətnamə qəbul ediməsini xahiş etmişdir.

Məhkəmə iclaslarında iştirak edən cavabdeh [redacted] oğlunun nümayəndəsi vəkil [redacted] oğlu etiraz və iddia müddətinin tətbiqinə dair ərizəyə uyğun izahat verərək iddianın rədd edilməsini məhkəmədən xahiş etmişdir.

Məhkəmə iclaslarında iştirak edən cavabdeh [redacted] oğlunun nümayəndəsi vəkil [redacted] oğlu iddianın rədd edilməsini məhkəmədən xahiş etmişdir.

İş materiallarına əlavə edilmiş və məhkəmə iclasında tədqiq edilmiş:

13 yanvar 2017-ci il tarixli “[redacted] ilə [redacted] oğlu arasında bağlanan nəqliyyat vasitəsinin alqı-satqı müqaviləsindən görünür ki, markası [redacted] Avtobus, dövlət qeydiyyat nişanı [redacted], buraxılış ili 2013 olan avtobus “[redacted] tərəfindən [redacted] oğluna satılmış və müqavilədə “[redacted]-nin möhürü vardır.

13 yanvar 2017-ci il tarixli “[redacted] ilə [redacted] oğlu arasında bağlanan nəqliyyat vasitəsinin alqı-satqı müqaviləsindən görünür ki, markası [redacted] Avtobus, dövlət qeydiyyat nişanı [redacted], buraxılış ili 2013 olan avtobus “[redacted]

tərəfindən [redacted] oğluna satılmış və müqavilədə "[redacted]-nin möhürü vardır.

13 yanvar 2017-ci il tarixli "[redacted] ilə [redacted] oğlu arasında bağlanan nəqliyyat vasitəsinin alqı-satqı müqaviləsindən görünür ki, "[redacted] markası [redacted] Avtobus, dövlət qeydiyyat nişanı [redacted], buraxılış ili 2013 olan avtobus "[redacted] tərəfindən [redacted] oğluna satılmış və müqavilədə "[redacted]-nin möhürü vardır.

13 yanvar 2017-ci il tarixli "[redacted] ilə [redacted] oğlu arasında bağlanan nəqliyyat vasitəsinin alqı-satqı müqaviləsindən görünür ki, "[redacted] markası [redacted] Avtobus, dövlət qeydiyyat nişanı [redacted], buraxılış ili 2013 olan avtobus "[redacted] tərəfindən [redacted] oğluna satılmış və müqavilədə "[redacted]-nin möhürü vardır.

13 yanvar 2017-ci il tarixli "[redacted] ilə [redacted] oğlu arasında bağlanan nəqliyyat vasitəsinin alqı-satqı müqaviləsindən görünür ki, "[redacted] markası [redacted] Avtobus, dövlət qeydiyyat nişanı [redacted], buraxılış ili 2013 olan avtobus "[redacted] tərəfindən [redacted] oğluna satılmış və müqavilədə "[redacted]-nin möhürü vardır.

13 yanvar 2017-ci il tarixli "[redacted] ilə [redacted] oğlu arasında bağlanan nəqliyyat vasitəsinin alqı-satqı müqaviləsindən görünür ki, "[redacted] markası [redacted] Avtobus, dövlət qeydiyyat nişanı [redacted], buraxılış ili 2013 olan avtobus "[redacted] tərəfindən [redacted] oğluna satılmış və müqavilədə "[redacted]-nin möhürü vardır.

13 yanvar 2017-ci il tarixli "[redacted] ilə [redacted] oğlu arasında bağlanan nəqliyyat vasitəsinin alqı-satqı müqaviləsindən görünür ki, "[redacted] markası [redacted] Avtobus, dövlət qeydiyyat nişanı [redacted], buraxılış ili 2013 olan avtobus "[redacted] tərəfindən [redacted] oğluna satılmış və müqavilədə "[redacted]-nin möhürü vardır.

10 noyabr 2017-ci il tarixli [redacted] oğlu ilə [redacted] oğlu arasında bağlanan nəqliyyat vasitəsinin alqı-satqı müqaviləsindən görünür ki, markası [redacted] SAZ Avtobus, dövlət qeydiyyat nişanı [redacted], buraxılış ili 2011 olan avtobus [redacted] oğlu tərəfindən [redacted] oğluna satılmışdır.

16 dekabr 2017-ci il tarixli [redacted] oğlu ilə [redacted] oğlu arasında bağlanan nəqliyyat vasitəsinin alqı-satqı müqaviləsindən görünür ki, markası [redacted] SAZNP37 Mikroavtobus, dövlət qeydiyyat nişanı [redacted], buraxılış ili 2011 olan avtobus [redacted] oğlu tərəfindən [redacted] oğluna satılmışdır.

28 dekabr 2017-ci il tarixli [redacted] oğlu ilə [redacted] oğlu arasında bağlanan nəqliyyat vasitəsinin alqı-satqı müqaviləsindən görünür ki, markası [redacted] SAZNP37 Avtobus, dövlət qeydiyyat nişanı [redacted], buraxılış ili 2011 olan avtobus [redacted] oğlu tərəfindən [redacted] oğluna satılmışdır.

30 dekabr 2017-ci il tarixli [redacted] oğlu ilə [redacted] oğlu arasında bağlanan nəqliyyat vasitəsinin alqı-satqı müqaviləsindən görünür ki, markası [redacted] SAZNP37 Mikroavtobus, dövlət qeydiyyat nişanı [redacted], buraxılış ili 2011 olan avtobus [redacted] oğlu tərəfindən [redacted] oğluna satılmışdır.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin:

87.10-cu maddəsinə əsasən məhdud məsuliyyətli cəmiyyətin xalis aktivlərinin dəyərinin əlli faizindən artıq məbləğdə olan əqd xüsusi əhəmiyyətli əqd hesab edilir. Xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərar cəmiyyətinin iştirakçılarının ümumi yığıncağında qəbul edilir.(28 dekabr 2018- ci il tarixli 1449-VOD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti, 30 dekabr 2018-ci il, 296 nömrəli, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12 nömrəli, 1kitab, maddə 2533) ilə yeni məzmunda 87.10-cu maddə əlavə edilmişdir).

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim -** Emin [redacted]
**Məhkəmənin adı:** [redacted]
**Sənədin elektron yüklənmə ünvanı:**
[redacted]

[redacted]

**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

S/N: 017

90-1.1-ci maddəsinə əsasən məhdud məsuliyyətli cəmiyyətin fəaliyyəti nəticəsində əldə edilmiş xalis mənfəətin iştirakçılar arasında bölüşdürülməsi cəmiyyətin ümumi yığıncağı tərəfindən qəbul edilən qərar əsasında cəmiyyətin nizamnaməsində müəyyən edilmiş qaydada həyata keçirilir. Həmin qərarda mənfəətin tamamilə və ya qismən bölüşdürülməsi müəyyən edilə bilər.

90-1.2-ci maddəsinə əsasən məhdud məsuliyyətli cəmiyyətin hər bir iştirakçısının nizamnamə kapitalındakı mayalarına uyğun olaraq mənfəət almaq hüququ vardır. Xalis mənfəət ümumi yığıncağın qərarı qəbul edildikdən sonra bir ay müddətində ödənilməlidir

91.1-ci maddəsinə əsasən məhdud məsuliyyətli cəmiyyətin ali orqanı onun iştirakçılarının ümumi yığıncağıdır.

91.1-2-ci maddəsinə əsasən cəmiyyətin iştirakçılarının növbəti ümumi yığıncağı icra orqanı tərəfindən nizamnamədə müəyyən edilmiş müddətdə, lakin ildə bir dəfədən az olmayaraq çağırılır. Cəmiyyətin illik fəaliyyətinin yekunlarına həsr olunmuş ümumi yığıncaq hesabat-maliyyə ili başa çatdıqdan sonra dörd aydan gec olmayaraq çağırılır.

354.2-ci maddəsinə Bu Məcəllənin 347.1-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, maraqlı şəxs əqdin bağlanmasına təsir etmiş zorakılığa və ya hədəyə son qoyulduğu gündən və ya əqdin etibarsız sayılmasına əsas verən halları bildiyi və ya bilməli olduğu gündən bir il ərzində əqdi mübahisə edə bilər. Vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqd mübahisəyə əsasən məlum olduğu andan bir ay ərzində mübahisə edilə bilər.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 77.1-ci maddəsinə əsasən hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

İddiaçı Mülki Məcəllənin 87.10-cu maddəsinə istinad edərək, müqavilələrin məhdud məsuliyyətli cəmiyyətin xalis aktivlərinin dəyərinin əlli faizindən artıq olduğundan xüsusi əhəmiyyətli əqd hesab edildiyini və bu səbəbdən xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərarın cəmiyyətinin iştirakçılarının ümumi yığıncağında qəbul edilməli olduğunu bildirmiş, məhkəmə hesab edir ki, iddiaçının istinad etdiyi sözügedən müddəa əsassızdır, belə ki, nəqliyyat vasitələrinin alqı-satqısı müqavilələri müxtəlif, yəni 2014, 2015 və 2017-ci illərdə bağlanmış, sözügedən maddə isə müqavilələr bağlandığı tarixlərdən sonra, yəni 28 dekabr 2018-ci il tarixli 1449-VOD nömrəli qanunla Mülki Məcəlləyə əlavə edilmiş, bu isə o deməkdir ki, 2014, 2015 və 2017-ci illərdə cəmiyyətinin xalis aktivlərlə bağlı xüsusi əhəmiyyətli əqdin bağlanılması üçün cəmiyyətinin iştirakçılarının ümumi yığıncağının qərarı tələb edilmirdi.

Bununla birlikdə nəqliyyat vasitələrinin alqı-satqısı müqaviləsinin şirkətin səlahiyyətli şəxsi tərəfindən imza edilmədiyi ilə bağlı iddiaçının nümayəndəsi, vəkilin istinad etdikləri ilə əlaqədar məhkəmə bildirir ki, iddiaçı tərəfindən mübahisələndirilən əqdlərin surətləri təqdim edilməklə yanaşı, həmin müqavilələrdə satıcı olan cəmiyyətinin mübahisələndirilən nümayəndəsinin imzası ilə yanaşı, həmin müqavilələr “[redacted]-nin möhürülü təsdiq edilmişdir.

Son olaraq məhkəmə bildirir ki, “[redacted]-də 33,3% paya malik olan iddiaçı iddia ərizəsi ilə məhkəməyə 15.02.2021-ci il tarixdə müraciət etmiş, sonuncu müqavilənin isə 30 dekabr 2017-ci il tarixdə bağlandığını nəzərə alaraq iddiaçı Mülki Məcəllənin 354.2-ci maddəsinə əsasən əqdin etibarsızlığı ilə qanunvericiliklə nəzərdə tutulmuş 1 illik iddia müddəti ötürülmüşdür. Belə ki, məhdud məsuliyyətli cəmiyyətin ali orqanı onun iştirakçılarının ümumi yığıncağıdır, cəmiyyətin iştirakçılarının növbəti ümumi yığıncağı icra orqanı tərəfindən nizamnamədə müəyyən edilmiş müddətdə, lakin ildə bir dəfədən az olmayaraq çağırılır. Cəmiyyətin illik fəaliyyətinin yekunlarına həsr olunmuş

ümumi yığıncaq hesabat-maliyyə ili başa çatdıqdan sonra dörd aydan gec olmayaraq çağırılır.

Göründüyü kimi 2017-ci ildən hər il bir dəfə cəmiyyətin iştirakçılarının növbəti ümumi yığıncağının keçirilməsi qanunvericiliklə imperativ müəyyən edilib, bu isə o deməkdir ki, iddiaçının nəqliyyat vasitələrin satılması ilə bağlı məlumatı olmuş və 2017-ci ildə sonuncu nəqliyyat vasitənin satıldıqdan sonra iddiaçı məhkəməyə 1 il ərzində müraciət etmək əvəzinə 3 ildən sonra müraciət etməklə iddia müddətini ötürmüşdür.

Odur ki, məhkəmə qeyd olunanları nəzərə alaraq hesab edir ki, iddiaçı [redacted] oğlunun iddiası rədd edilməlidir.

Beləliklə, məhkəmə toplanmış və tədqiq olunmuş sübutlara məcmu halda hüquqi qiymət verərək hesab edir ki, iddiaçı [redacted] oğlunun cavabdehlər "[redacted], [redacted] oğlu, [redacted] oğlu, [redacted] oğlu, [redacted] oğlu, [redacted] oğlu, [redacted] oğlu, [redacted] oğlu, "[redacted]-yə (müstəqil tələb irəli sürməyən üçüncü şəxslər: [redacted] oğlu, [redacted] oğlu, "[redacted]) qarşı müqavilələlərin etibarsız hesab edilməsi tələbinə dair iddia tələbi rədd edilməlidir.

Azərbaycan Respublikası MPM-in 216-220-ci maddələrinə əsasən, məhkəmə

**Q Ə T  E T D İ:**

İddiaçı [redacted] oğlunun cavabdehlər [redacted] MMC, [redacted] oğlu, [redacted] oğlu, [redacted] oğlu, [redacted] oğlu, [redacted] oğlu, [redacted] oğlu, [redacted] oğlu, "[redacted] MMC-yə (müstəqil tələb irəli sürməyən üçüncü şəxslər: [redacted] oğlu, [redacted] oğlu, "[redacted] Açıq Tipli Səhmdar Cəmiyyəti) qarşı müqavilələlərin etibarsız hesab edilməsi tələbinə dair iddia tələbi rədd edilsin.

Qətnamədən onun tərəflərə rəsmi qaydada təqdim edildiyi gündən 1 ay müddətində Bakı Kommersiya Məhkəməsi vasitəsi ilə Bakı Apellyasiya Məhkəməsinə apellyasiya şikayəti verilə bilər.

**Hakim:Emin Əliyev**

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim -** Emin Əliyev
**Məhkəmənin adı:** [redacted]
**Sənədin elektron yüklənmə ünvanı:**
[redacted]

[redacted]

__Qeyd:__ «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

S/N: 017